

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 132 (23.043)

17 iyul 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Azərbaycan və İran gömrük xidmətləri arasında işçi görüş keçirilib



*Gömrük xidməti nümayəndələri əvvəlcə İran İslam Respublikasının Culfa şəhərində görüşüb.*

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov, İran İslam Respublikasının maliyyə və iqtisadiyyat nazirinin müavini, Gömrük Administrasiyasının prezidenti Foroud Asgari və digər rəsmi şəxslərin iştirak etdiyi işçi görüşdə ölkələrimiz arasında tarixi-mədəni əlaqələrdən, eləcə də qarşılıqlı əməkdaşlığa əsaslanan iqtisadi-ticari münasibətlərdən söhbət açılıb. Tərəflər Azərbaycan və İran gömrükçüləri arasında vaxtaşırı keçirilən görüşlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə, eləcə də iki ölkə arasında mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi işinə töhfə verdiyini vurğulayıblar.

Görüşdə iki ölkənin gömrük sərhədindən keçən mal və nəqliyyat vasitələrinə dair reallaşdırılan ilkin məlumat mübadiləsinin pilot layihəsinin tam şəkildə həyata keçirilməsi üçün müzakirələr aparılıb, qaçaqmalçılıqla mübarizə və tranzit məsələləri müzakirə olunub.

Azərbaycan tərəfinin İran gömrüyündə "bir pəncərə" prinsipinin tətbiqinə dair irəli sürdüyü təklif qəbul edilib. "Bir pəncərə" prinsipinin tətbiqində Azərbaycan Gömrük Xidmətinin təcrübəsinin öyrənilməsi və dəstək göstərilməsi razılaşdırılıb.

Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin nümayəndə heyətləri arasında işçi görüş daha sonra Naxçıvan şəhərində davam etdirilib.

Nümayəndə heyətləri əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini yad ediblər.

Heydər Əliyev Muzeyini ziyarət edən qonaqlar görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən eksponatlarla baxıblar.

Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndə heyətləri arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən görüşdə gündəlikdə duran məsələlərin yekun müzakirəsi aparılıb. Tərəflər bu ilin mayından etibarən Azərbaycan Respublikası ilə İran İslam Respublikası sərhədində yerləşən Astara, Biləsuvar və Culfa gömrük sərhəd-buraxılış məntəqələrinin 24 saatlıq iş rejimində fəaliyyət göstərməsinin əhəmiyyətinə toxunub, hər iki dövlətin ərazisindən keçən tranzit daşımalarının artırılması, iki ölkə arasında mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan müvafiq addımların əməkdaşlığın daha da gücləndirilməsi işinə töhfə verdiyini vurğulayıblar.

Nümayəndə heyətləri bütün məsələlərin araşdırılması və təhlil olunması məqsədilə İşçi Qrup yaradıblar.

Görüşün sonunda "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Gömrük Administrasiyası arasında 2018-2019-cu illər üçün gömrük hüquqpozmaları ilə mübarizə sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsi üzrə Tədbirlər Planı" və Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin nümayəndə heyətləri arasında işçi görüşün protokolu imzalanıb.

**Rahil TAHİRLİ**
**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru**

## Vakant vəzifələrin tutulması üçün test imtahanı olub

Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı 19 may 2018-ci il tarixdə keçirilən tədbirdə qarşıya qoyulmuş tapşırıqların icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün bu il iyun ayının 1-də elan edilmiş müsabiqənin test imtahanı mərhələsinə start verilib.



Müsabiqəyə 9 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 20 namizəd sənəd təqdim edib. Test imtahanlarında keçid balını toplamış şəxslər növbəti mərhələdə iştirak etmək hüququ qazanacaqlar. Əvvəlcə namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib.

İmtahanda namizədlərə qanunvericilik üzrə 40, dünyagörüşü üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilir, sualları cavablandırmaq üçün onlara 2 saat 30 dəqiqə vaxt verilir.

Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılır. Test imtahanı bitdikdən dərhal sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilir. İmtahanların nəticələri Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilir.

Test imtahanları 17 iyul 2018-ci il tarixədək davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

## Günəş Elektrik Stansiyası Naxçıvanın enerji təhlükəsizliyinə mühüm töhfədir

*Bərpaolunan enerji mənbələrindən istifadə bütün dünyada olduğu kimi, muxtar respublikamızda da təbii sərvətlərin iqtisadi dövriyyəyə cəlb edilməsinin ən yaxşı yollarından biri hesab olunur. Bu baxımdan Günəş, külək, su və bioenerji kimi alternativ enerji mənbələrindən daha çox istifadə məsələləri iqtisadiyyatın inkişafı ilə aktuallıq qazanır ki, bu da, son nəticədə, enerji təhlükəsizliyimizə öz töhfəsini verir.*



Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi problemi öz aktuallığını həmişə qoruyub saxlayıb. Müasir dövrdə bu, yeni texnologiyalara əsaslanan ekoloji təmiz enerji mənbələrindən istifadə ilə öz həllini uğurla tapmaqdadır. Bu baxımdan Naxçıvanın böyük hidroenerji ehtiyatları ilə yanaşı, ekoloji cəhətdən təmizliyi və təhlükəsizliyi ilə seçilən Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi muxtar respublikamızın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm addım olub. Günəş Elektrik Stansiyası Naxçıvanın enerji asılılığından tamamilə azad olması və onun elektrik enerjisi idxalçısından ixracatçıya çevrilə bilməsi yolunda son illərdə muxtar respublikada həyata keçirilmiş enerjiyönümlü layihələr arasında əhəmiyyətli ilə seçilməkdədir. Digər tərəfdən, bu layihə həm də onunla əhəmiyyətlidir ki, Naxçıvan Muxtar Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalında 60 faizdən çox olması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" tərəfindən hazırlanan Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq lider mövqeyə çıxmasında mühüm amillərdəndir.

2015-ci ildə Babək rayonunun Xal-xal kəndi yaxınlığında tikilmiş Naxçıvan Günəş Elektrik Stansiyası ilk olaraq 20 meqavat güclə istismara verilib. Daha sonra 2017-ci ildə stansiyanın layihə gücü əlavə 2 meqavat artırılaraq 22 meqavata çatdırılıb. 2017-ci il ərzində muxtar respublikada istehsal edilmiş 431 milyon 691 min kilovat-saat elektrik enerjisinin 31 milyon 313 min kilovat-saatı Günəş Elektrik Stansiyasında istehsal edilərək enerji sisteminə ötürülüb ki, bu da ümumi istehsalın 7,25 faizini təşkil edib. Nəzərə alsaq ki, bu qədər enerji hasilatı bir zamanlar, yəni ölkəmizin müstəqilliyinə qədərki dövrdə Naxçıvanda tək elektrik enerjisi mənbəyi olmuş Araz Su Elektrik Stansiyasının verdiyi enerjinin, təxminən, yarısı qədərdir, onda Günəş Elektrik Stansiyasının strateji əhəmiyyətini bir daha görmək mümkündür.

Hazırda Naxçıvanın çox böyük elektrik enerji potensialı vardır. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsinə daxil olan səkkiz ədəd elektrik stansiyasının ümumi qoyuluş gücü, ümumilikdə, 239,4 meqavat təşkil edir. Cari ilin ilk 6 ayında Günəş Elektrik Stansiyasında 17 milyon 302 min kilovat-saat elektrik enerjisi istehsal olunub.

Günəş Elektrik Stansiyasının əhəmiyyəti bir də onunla seçilir ki, o, Naxçıvanın enerji resurslarının bərabər paylanılmasında və şəbəkələrin həddən artıq yüklənməsinin qarşısının alınmasında çox əlverişlidir. Naxçıvanda günəşli günlərin sayının çoxluğu, burada müxtəlif məqsədlər üçün sərf edilən enerji sərfiyyatının yay fəslində daha çox olması bu baxımdan stansiyanın əhəmiyyətliliyini ortaya qoyur. Belə ki, Günəş Elektrik Stansiyası yay aylarında isti hava şəraitinə görə daha çox yüklənməyə məruz qalan digər stansiyaların işinin yüngülləşdirilməsinə kömək edir.

Naxçıvan Günəş Elektrik Stansiyası ən son texnoloji yeniliklər əsasında qurularaq fəaliyyət göstərir. 36 hektar ərazidə tikilmiş stansiyada ən müasir "şüşə-şüşə" tipli günəş panelləri quraşdırılıb, onun fəaliyyəti tamamilə kompüterləşdirilib. Buradakı invertorlar, transformator, komutasiya aparatları və digər elektrik avadanlıqları ilə təchiz olunmuş 13 transformator yarımstansiyası quraşdırılıb. Havaların istiləşməyə başladığı günlərdən etibarən stansiyanın yay rejiminin tətbiqi buradakı bütün avadanlıqların avtomatik soyutma sisteminə keçməsini təmin edib ki, bu da təhlükəsizlik və faydalı iş əmsalının artması deməkdir.

Naxçıvan Günəş Elektrik Stansiyası təkcə muxtar respublikamızın deyil, eləcə də ölkəmizin və yaxın regionun uğurlu layihələrindəndir. Belə layihələrlə müstəqil ölkəmizdə bir daha sübut olunub ki, sahib olduğumuz təbii sərvətlərlə biz artıq bütün sahələrdə öz sözümüzü deməyə, ölkəmizin iqtisadi gücünü artırmağa qadirik.

**✍ Əli CABBAROV**

## Əmək yarmarkasında işə qəbul üçün 42 nəfərə göndəriş verilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Şərur Rayon Məşğulluq Mərkəzi tərəfindən əmək bazarı təhlil edilir, müəssisələrdə peşə tələbatı müəyyənləşdirilir, işçi qüvvəsi ilə mövcud vakant yerlər arasında fərq dəqiqləşdirilir. Qeyd olunan məsələlərlə əlaqədar 2018-ci ilin I yarısında mərkəzdə 289 nəfər işaxtaran qeydiyyata alınıb, onlardan 266 nəfəri daimi işlə təmin olunub.

Bu barədə Şərur Olimpiya-İdman Kompleksində təşkil olunan növbəti əmək yarmarkasında çıxış edən rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov, rayon İcra Hakimiyyəti başçısının birinci müavini İmran Əliyev geniş məlumat veriblər.

Qeyd olunub ki, ilin əvvəlindən indiyədək 22 işaxtaran ictimai işlərə, 2 nəfər peşə hazırlığına cəlb edilib, 17 sağlamlıq imkanları məhdud, hərbi xidmətdən tərxis edilən 11 nəfər özünə daimi iş yeri tapıb, 2 nəfər isə peşə təhsili almaq üçün qeydiyyata götürülüb. Rayondakı xidmət mərkəzlərində yaradılmış bərbər, qadın gözəllik salonu və dərzi sexlərini peşəkar kadrlarla təmin etmək üçün mütəmadi iş aparılıb, müvafiq peşə təhsili olan 27 nəfər həmin obyektlərdə işlə təmin olunub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən uzun müddət ünvanlı sosial yardım alan və sosial müdafiəyə xüsusi ehtiyacı olan aztəminatlı ailələrə fərdi təsərrüfatlarını qurmaq, özünüməşğulluğu təmin etmək üçün 33 nəfərə, o cümlədən 29 nəfərə yanında balası olan "Simmental" cinsli inək, 2 nəfərə 20 baş qoyun, 1 nəfərə xalça toxumaq üçün hana, ip və digər avadanlıqlar, 1 nəfər cəzaçəkmə müəssisəsindən azad olunan vətəndaşa isə arı pətəyi və digər məişət əşyaları hazırlamaq üçün lazım olan avadanlıqlar verilib.

Vurğulanıb ki, işaxtaran vətəndaşların məşğulluğunun təmin olunmasının ən çevik formalarından biri də əmək yarmarkalarıdır ki, Məşğulluq Mərkəzində bu tədbirlərə də xüsusi önəm verilir. Belə ki, bu ilin aprel ayında keçirilən yarmarkada 42 nəfər daimi işlə təmin olunub. Bugünkü yarmarkaya isə müxtəlif idarə, müəssisə və özəl qurumlardan, ümumilikdə, 348 boş iş yeri çıxarılıb, 42 nəfərə işə qəbul üçün göndəriş verilib.

**Elman MƏMMƏDOV**

*Dövlət proqramı necə icra olunur?*

## Arıçılığın inkişafına göstərilən qayğı bol məhsul istehsalında başlıca stimuldur

***Muxtar respublikada qədim və çox əhəmiyyətli təsərrüfat sahəsi olan arıçılığa göstərilən dövlət qayğısı öz bəhrəsini verib, bu sahə yüksək inkişaf mərhələsinə qədəm qoyub. Son illər ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən arıçılıqla məşğul olan 102 sahibkarlıq subyektinə 727 min manat həcmində kredit verilib, balın emalı və qablaşdırılması ilə məşğul olan 5 istehsal müəssisəsi yaradılıb. Naxçıvanda arıçılığın inkişafı sahəsində görülən tədbirlərin nəticəsidir ki, əgər 2000-ci ildə arı ailələrinin sayı 12 min idisə, 2017-ci ildə bu rəqəm 71 min 66 olub.***



Bu gün muxtar respublikada 4800-dən çox sahibkar arıçılıqla məşğuldur. 2017-ci ildə muxtar respublikada 1424 ton bal istehsal edilib. “Arıçılıq məhsulları – bal festivalı”nın keçirilməsi bu sahəyə göstərilən diqqət və qayğının təzahürüdür. “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” isə yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracına, ana təbiətin yenidən etibarlı qorunmasına şərait yaradıb.

Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əyyub Abdullayevlə həmsöhbət olduq. O bildirdi ki, muxtar respublikanın torpaq-iqlim şəraiti digər kənd təsərrüfatı sahələri ilə yanaşı, arıçılığın inkişafına da geniş imkanlar açıb. Bu imkanlardan səmərəli istifadə edilməsi üçün arıçılara hərtərəfli şərait yaradılıb. Müsahibimin sözlərinə görə, yaxşı hava şəraitində bir gündə bir bal arısı 4 min çiçəkdən, böyük bir arı ailəsi isə 15 milyondan 40 milyona qədər çiçəkdən nektar toplayır. Orta güclü bir arı ailəsi bir il ərzində 30 kiloqram bal, təxminən, 10-15 kiloqram çiçək tozu toplamaq gücünə malikdir.

Müəyyən edilib ki, arı ailələrinin optimal mühitdə günəbaxan, qarabaşaq, pambıq və başqa entomofil sahələrə vaxtında gətirilməsi nəticəsində həmin bitkilərin məhsuldarlığı 20-25 faizdən də artıq olur. Meyvə və giləmeyvəlilər bütünlüklə arılar tərəfindən tozlandırılarsa, məhsuldarlıq 2 dəfədən çox, yoncatoxumlular, xovlular fəsiləsinə aid bitkilərin məhsuldarlığı 3-4 dəfə artır.

Müsahibimin dediyinə görə, əgər insanlar tərəfindən istifadə edilən 23 min bitki növünün 20 mini çiçəkləyən, bunun da, təxminən, 1,5-2 mininin mədəni bitkilər olduğunu nəzərə alsaq, sahələrdə məhsuldarlığın artırılmasında arıların əhəmiyyəti daha yaxşı anlaşılır. Təkcə bizim ölkəmizdə mövcud olan entomofil bitki növlərinin məhsuldarlığına nəzər yetirsək, onda görərik ki, kənd təsərrüfatı bitkilərindən bal arılarının tozlandırılmasından sonra əldə olunan məhsulun dəyəri arıların istehsal etdiyi məhsulların dəyərindən (bal, mum, arı südü və sair) 10 dəfələrlə çoxdur. Məsələ ondadır ki, kənd təsərrüfatı sahələrindəki bitkilərin, bağların, istixanaların məhsuldarlığının artırılmasının ən sadə, ucuz yolu bal arıları vasitəsilə tozlandırmanı geniş tətbiq etməkdir. Hətta ən yüksək aqrotexniki qaydalar, meliorativ tədbirlər, qiymətli bioloji- kimyəvi qatqılar belə, onu əvəz edə bilmir.



Əyyub Abdullayev deyir ki, dünyada sənayenin və kənd təsərrüfatının yüksək templə inkişafı arı ailələrinin nəzərəçarpacaq dərəcədə azalmasına səbəb olub, hətta bəzi vəhşi növ həşərat tozlandırıcıların nəslinin, demək olar ki, kəsilməkdə olması müşahidə edilir. Son 40-50 ildə elmi-texniki tərəqqi, ətraf mühitin çirklənməsi, zərərli tullantıların atılması arıların kütləvi qırılmasına, arı məhsullarının tərkibinin keyfiyyət baxımından dəyişilməsinə gətirib çıxarıb. Onu da qeyd edək ki, son vaxtlar tez-tez bədnam ermənilərin törətdikləri yanğınlar, meşələri vəhşicəsinə doğramaları, çayları çirkləndirmələri, ümumilikdə, təbiətə, o cümlədən möcüzəli varlıq olan bal arılarının azalmasına da təsirsiz ötüşmür. Ermənilər bununla yaşıl kütlənin həcmini azaldırlar. Hansı ki bu kütlə arıları nektarla və çiçəklə, heyvanları yem kütləsi, insanları isə bol qida maddələri və oksigenlə təmin edir, xəstəliklərin qarşısını alır. Bunu da xatırlatmaq yerinə düşər ki, görkəmli alim Albert Eynşteyn sonuncu arının ölümündən sonra dünyanın 30 il, indiki alimlər isə sadəcə, 4 il yaşaya biləcəklərini bildiriblər.

“Arıçılığa və arıkimilərə ən böyük ziyan kənd təsərrüfatında gəmiricilərə qarşı aparılan kimyəvi dərmanlama tədbirlərinin xəbərdarlıq edilmədən, çox vaxt isə təlimata uyğun aparılmamasından irəli gəlir. Vəhşi tozlandırıcılar ərazilərin bütünlüklə şumlanması zamanı məhv edilir, pətəkləri dağıdılır. Belə bir vəziyyətdə vəhşi arılar əlverişli sahə olaraq yol kənarları, səhralar və gözdənuzaq digər yerləri seçirlər. Hətta belə yerlərdə də çox vaxt quru otları yandırmaqla onların yaşamaları məhdudlaşdırılır. Ona görə də Naxçıvan Muxtar Respublikasında quru otlaqların yandırılmasının qadağan edilməsi arıçıların ürəyincə olub”, – deyən müsahibim diqqətə çatdırdı ki, muxtar respublikamızda ekoloji sistemin qorunması istiqamətində ciddi işlər görülür, bal arıları və digər arı kimi tozlandırıcıların təbiətimizin qorunmasında, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında rolu düzgün qiymətləndirilir. Ölkə başçısının arıçılıqla bağlı imzaladığı sərəncam və qərarlar uzaq gələcək üçün bu sahənin prioritet istiqamətlərini və hədəflərini müəyyənləşdirir. Buna əyani sübut olaraq son illər muxtar respublikamızda kütləvi şəkildə əkilən ağac və çoxillik bitkiləri nümunə göstərmək olar. Ötən dövr ərzində 12 min hektardan artıq sahədə yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınıb. Xüsusi mühafizə statuslu təbiət obyektlərinin yaradılması təbiət komplekslərinin, flora və fauna ehtiyatlarının qorunmasına, bərpasına, ekoloji balansın təmin edilməsinə müsbət təsir göstərib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamına əsasən muxtar respublikada Araz çayı boyunca “Arazboyu” Dövlət Təbiət Yasaqlığının, 2009-cu il 22 iyun tarixli Fərmanı ilə Şərur, Kəngərli, Şahbuz və Babək rayonlarının ərazisində 68 min 911 hektar sahədə “Arpaçay” Dövlət Təbiət Yasaqlığının yaradılması ekoloji vəziyyətin bərpası ilə yanaşı, sayı azalmaqda olan bitki və heyvan növlərinin qorunub saxlanmasına və artırılmasına şərait yaradıb.

Naxçıvan Muxtar Respublikasında icrası başa çatmış 2012-2015-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı qəbul edilmiş dövlət proqramı bu sahələrdə xeyli uğurlar qazanılmasını təmin edib. 2016-2020-ci illəri əhatə edən digər dövlət proqramının isə icrası davam etdirilir. Bu isə muxtar respublikamızda meyvə bolluğu yaradır, ekoloji vəziyyətə müsbət təsirini göstərir. Son illər diyarımızda 1000 hektardan çox sahədə meyvə bağları salınıb.

Müsahibim qeyd etdi ki, dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin vaxtlı-vaxtında yerinə yetirilməsi, xüsusilə iqlim, relyef, təbii şəraitdən, aqrar sahənin imkanlarından asılı olaraq ixtisaslaşma, çoxşaxəli iqtisadi amillərin stimullaşdırılması, eyni zamanda arıçı sahibkarların pulsuz dərman preparatları ilə təmin olunması arıçılığın inkişafına çox ciddi təsir etməklə onu aqrar bölmənin mühüm bir sahəsinə çevirib. Vaxtında görülmüş tədbirlər, rayonlar da daxil olmaqla, yaradılmış yüksək təchizatlı laboratoriyaların mövcudluğu, arı ailələrinin müxtəlif xəstəliklərinin düzgün müəyyən olunması və aradan qaldırılmasına şərait yaradıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Arıçılığın inkişafının stimullaşdırılması haqqında” 2018-ci il 5 mart tarixli Sərəncamı bu baxımdan yeni perspektivlər vəd edir. Sərəncama əsasən 2018-ci il də daxil olmaqla, 5 il müddətində arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə ildə 10 manat məbləğində subsidiya müəyyən edilib. Bu mühüm sərəncam muxtar respublikamızda da bal arılarının, nəticə etibarilə, ətraf mühitin qorunub saxlanılmasına öz töhfəsini verəcəkdir.

Qeyd etmək lazımdır ki, muxtar respublikamızda qoruq və biçənək sahələrinin artırılması, dincə qoyulmuş torpaq sahələrində vəhşi arıların yuvalanması üçün münbit şəraitin yaradılması istiqamətində maarifləndirmə və təbliğat işləri aparılır. Ətraf mühitin, ekologiyanın təhlükəli-zəhərli tullantılardan və çirkləndirmələrdən qorunması isə aktivləşdirilir. Meşələrin, otlaqların yanğından qorunması mexanizmləri təkmilləşdirilir, yeni meşə-otlaq massivləri salınır. İnsanlar arasında təbiətin qorunması, kənd təsərrüfatında arıçılığın rolu, inkişafı məqsədləri haqqında genişmiqyaslı maarifləndirici tədbirlər və təbliğat-təşviqat işləri aparılır.

✍ **Muxtar MƏMMƏDOV**

*İstehsal müəssisələri*

## İnşaat işlərində keyfiyyətli materiallardan istifadə edilir

“Gəmiqaya Beton Məmulatları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti 2005-ci ildə fəaliyyətə başlayıb. Əvvəllər muxtar respublikamızda aparılan tikinti işləri üçün lazım olan inşaat materialları, beton primitiv üsullarla hazırlanır, quruculuq obyektlərində istifadə olunan kilid daş, dekorativ kərpic və digər beton məmulatları qonşu ölkələrdən gətirilirdi. İndi həmin materiallar bu müəssisədə istehsal edilir. Müəssisədə Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb. Burada istehsal gücü saatda 120 ton xammal olan qum-çınqıl karxanası, günlük 100 kubmetr beton istehsal edə biləcək zavod və 35 kvadratmetr olan dekorativ daşlar istehsalı sahəsi fəaliyyət göstərir. Hazırda muxtar respublikanın inşaat meydançalarında bu müəssisənin məhsullarına böyük üstünlük verilir. Bu da burada keyfiyyət amilinə verilən önəmin ifadəsidir.





Son illərdə su və kanalizasiya sistemlərinin yenilənməsi istiqamətində muxtar respublikada həyata keçirilən irimiqyaslı tədbirlər keyfiyyətli beton borulara olan tələbatı da artırıb. Bu məqsədlə 2012-ci ilin avqust ayında müəssisədə beton boru istehsalı sahəsi yaradılıb. İstehsal sahəsində müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal gücü saatda 10 ədəd beton boru və beton daban olan müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, keyfiyyətli məhsul istehsalına nail olunub. Burada qalınlığı 8, 15, hündürlüyü 60 santimetr, diametri 600-800-1000 millimetr olan beton borular istehsal edilir. Həmin materiallar möhkəmliyi və davamlılığı ilə seçilir.

İnşaat işlərinin ilbəil genişləndirilməsi beton məmulatlarına olan tələbatı xeyli artırıb. Tələbatın dolğun ödənilməsi üçün müəssisə tərəfindən bir sıra tədbirlər həyata keçirilib. Belə ki, burada Türkiyə Respublikasından istehsal gücü saatda 100 kubmetr olan müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılıb. İstehsal prosesi konveyer üsulu ilə təşkil edilib. Beton istehsalı mərhələli şəkildə həyata keçirilir. Belə ki, əvvəlcə bunun üçün keyfiyyətli qum tədarük edilir. Qum-çınqıl karxanasında bir saat ərzində 120 ton qum yuyularaq ələnir və çınqıl 3 növə ayrılır. Sonrakı mərhələdə isə yuyulmuş qum beton zavoduna daşınır. Burada texnoloji proseslərə kompüter vasitəsilə nəzarət olunur. Betonun hazırlanması üçün qumun, sementin və suyun həcmi də məhz kompüterlər vasitəsilə müəyyənləşdirilir. Kompüterdə betonun keyfiyyət göstəriciləri barədə məlumat öz əksini tapır. Bu da, son nəticədə, keyfiyyətli beton məmulatları istehsal edilməsinə, müəssisənin daha rentabelli işləməsinə şərait yaradır.

Beton məmulatları istehsalı sahəsində gücü saatda 35 kvadratmetr kilid daş olan avadanlıqlar quraşdırılıb. Hazırda 2 istehsal xəttinin fəaliyyət göstərdiyi sahədə müxtəlif beton məmulatları – kilid daş, dekorativ kərpic, yağış kanalı, bordür istehsal olunur.

Müəssisə artan tələbatı nəzərə alaraq öz fəaliyyətini genişləndirib. Hazırda müəssisənin Şərur rayonunun Qarxun və Ordubad rayonunun Aza kəndləri ərazisində istehsal sahələri fəaliyyət göstərir. Hər birinin ərazisi 6 hektar olan istehsal sahələrinin saatda 100 kubmetr beton istehsal etmək imkanları vardır. Bu müəssisələrin qurulması sakinlərin uzaq məsafələr qət etmədən, rahat şəkildə və sərfəli qiymətlərlə beton əldə etməsinə xidmət edir.

Onu da qeyd etmək lazımdır ki, “Gəmiqaya Beton Məmulatları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikada işsizlik probleminin aradan qaldırılmasına da öz töhfəsini verir. Belə ki, hazırda burada 91 işçi çalışır, onların əməyi yüksək qiymətləndirilir. İşçilər üçün pulsuz yemək, paltar və nəqliyyat vasitəsi ayrılıb. İşçilərlə söhbət zamanı bildirdilər ki, burada yüksək əməkhaqqı alır, ailələrinin maddi vəziyyətini yaxşılaşdırırlar. Yaxşı iş şəraitinin olması məhsuldar fəaliyyətə də müsbət təsir göstərir. Keyfiyyət amilinə də hər zaman diqqət yetirirlər. Sevinirlər ki, ucaldılan binalarda, tikilən evlərdə, həyata keçirilən layihələrdə az da olsa, onların da payı var. Yaradılan gözəl iş şəraitinə görə dövlətimizə minnətdardırlar.

Bu gün doğma Naxçıvanımızda inşaat işlərinin ən qızğın dövrü olduğundan tikinti materiallarına tələbat olduqca böyükdür. “Gəmiqaya Beton Məmulatları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin işçiləri də artan tələbatı ödəmək üçün yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışırlar.

✍ **Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 17 iyul 2018-ci il tarixdən 7 avqust 2018-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytında ***(www.dqmk.nmr.az)*** elektron xidmətlər bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək məqsədilə test imtahanında iştirak üçün 70 manat məbləği Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödəməli və ödənişə dair qəbzi, şəxsiyyət vəsiqəsinin, ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında sənədin (diplomun) surətini Komissiyaya təqdim etməlidirlər.

Elektron ərizələrin təsdiqi həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-a və $14^{00}$-dan $17^{30}$-dək həyata keçirilir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Maraqlananlar Komissiyanın (036)545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| **Naxçıvan şəhəri üzrə:** | | | | | |
| 6900213 | Naxçıvan Qızlar Liseyi | Coğrafiya | 1 | 12 | |
| 6910213 | 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6910318 | 3 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 2 | 24 | |
| 6910321 | 3 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6910521 | 5 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6910621 | 6 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6910620 | 6 №-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6910921 | 9 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6910913 | 9 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6911718 | 17 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6911720 | 17 №-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6911721 | 17 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| **Cəmi:** | | **13 yer** | | | |
| **Şərur rayonu üzrə:** | | | | | |
| 6920809 | Axaməd kənd tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6920313 | Alışar kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6920318 | Alışar kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6920320 | Alışar kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6920312 | Alışar kənd tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6920508 | Arbatan kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6920720 | Aşağı Yaycı kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6920712 | Aşağı Yaycı kənd tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6921418 | Danyeri kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6921410 | Danyeri kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6921620 | Dərəkənd kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6921610 | Dərəkənd kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6921818 | Diyadin kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6921820 | Diyadin kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6921810 | Diyadin kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6921920 | Dizə kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6922213 | Ərəbyengicə kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6922519 | Həmzəli kənd tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6922510 | Həmzəli kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6922508 | Həmzəli kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6924909 | Xanlıqlar kənd tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6924919 | Xanlıqlar kənd tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6925014 | Xələc kənd tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6925025 | Xələc kənd tam orta məktəb | Fransız dili | 1 | 12 | |
| 6925110 | Xətai kənd ümumi orta məktəb | Kimya | 1 | 12 | |
| 6922708 | Kərimbəyli kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6923013 | Kürkənd kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6923820 | Qarahəsənli kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6923917 | Qarxun kənd tam orta məktəb | Təsviri incəsənət | 1 | 12 | |
| 6923108 | Mahmudkənd kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6923309 | Muğancıq-Mehrab kənd tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6923412 | Muğanlı kənd tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6924108 | Sərxanlı kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6924413 | Şəhriyar kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6924518 | Tənənəm kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6924510 | Tənənəm kənd tam orta məktəb | Kimya | 1 | 12 | * |
| 6924613 | Təzəkənd kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | * |
| 6924618 | Təzəkənd kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6924608 | Təzəkənd kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | * |
| 6924713 | Tumaslı kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6924720 | Tumaslı kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6925218 | Yengicə kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6925219 | Yengicə kənd tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6925308 | Yeni Havuş kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6925410 | Yuxarı Daşarx kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **48 yer** | | | |
| **Babək rayonu üzrə:** | | | | | |
| 6930418 | Aşağı Buzqov kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6930420 | Aşağı Buzqov kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6930408 | Aşağı Buzqov kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | * |
| 6930613 | Cəhri kənd 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | * |
| 6930707 | Çeşməbasar kənd tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6930911 | Gərməçataq kənd tam orta məktəb | Biologiya | 1 | 12 | * |
| 6930909 | Gərməçataq kənd tam orta məktəb | Fizika | 1 | 12 | * |
| 6931019 | Göynük kənd tam orta məktəb | İnformatika | 1 | 12 | * |
| 6931010 | Göynük kənd tam orta məktəb | Kimya | 1 | 12 | * |
| 6932509 | Qahab kənd tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6932518 | Qahab kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6931818 | Naxışnərgiz kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6932220 | Nehrəm kənd 2 №-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6931914 | Nəcəfəlidizə kənd tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6931919 | Nəcəfəlidizə kənd tam orta məktəb | İnformatika | 1 | 12 | * |
| 6932714 | Sirab kənd tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6932720 | Sirab kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6932712 | Sirab kənd tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6933113 | Vayxır kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | * |
| **Cəmi:** | | **19 yer** | | | |
| **Ordubad rayonu üzrə:** | | | | | |
| 6940119 | Ordubad şəhər 1№-li tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6940120 | Ordubad şəhər 1№-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6940115 | Ordubad şəhər 1№-li tam orta məktəb | Texnologiya | 1 | 12 | |
| 6940518 | Aza kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6940719 | Baş Dizə kənd tam orta məktəb | İnformatika | 1 | 12 | * |
| 6941007 | Bist kənd tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | * |
| 6941018 | Bist kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6941020 | Bist kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6941220 | Dəstə kənd 1 №-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6941216 | Dəstə kənd 1 №-li tam orta məktəb | Musiqi | 1 | 12 | |
| 6941412 | Dırnıs kənd tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6941508 | Dizə kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6941612 | Düylün kənd tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6942020 | Gilançay kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6943511 | Xurs kənd tam orta məktəb | Biologiya | 1 | 12 | * |
| 6942108 | Kələki kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | * |
| 6942318 | Nəsirvaz kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6942409 | Nürgüt kənd tam orta məktəb | Fizika | 1 | 12 | * |
| 6942420 | Nürgüt kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6942617 | Parağa kənd tam orta məktəb | Təsviri incəsənət | 1 | 12 | * |
| 6942722 | Pəzməri kənd tam orta məktəb | Alman dili | 1 | 12 | * |
| 6942708 | Pəzməri kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | * |
| 6942807 | Sabirkənd kənd tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | * |
| 6943018 | Unus kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | * |
| 6943012 | Unus kənd tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6943320 | Vənənd kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6943618 | Yuxarı Əylis kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| **Cəmi:** | | **27 yer** | | | |
| **Culfa rayonu üzrə:** | | | | | |
| 6950718 | Dizə kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6950815 | Əbrəqunus kənd tam orta məktəb | Texnologiya | 1 | 12 | * |
| 6951011 | Ərəfsə kənd tam orta məktəb | Biologiya | 1 | 12 | * |
| 6951413 | Gülüstan kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6951410 | Gülüstan kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6951907 | Qızılca kənd tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | * |
| 6951911 | Qızılca kənd tam orta məktəb | Biologiya | 1 | 12 | * |
| 6952009 | Saltaq kənd tam orta məktəb | Fizika | 1 | 12 | * |
| 6952112 | Şurud kənd tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6952512 | Yaycı kənd 1 №-li tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6952511 | Yaycı kənd 1 №-li tam orta məktəb | Biologiya | 1 | 12 | |
| **Cəmi:** | | **11 yer** | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Kəngərli rayonu üzrə:** | | | | | |
| 6970920 | Xıncab kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6970418 | Qabıllı kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 2 | 24 | |
| 6970410 | Qabıllı kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6970411 | Qabıllı kənd tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6970718 | Şahtaxtı kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6970820 | Təzəkənd kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6970808 | Təzəkənd kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | * |
| 6970813 | Təzəkənd kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | * |
| **Cəmi:** | | **9 yer** | | | |
| **Şahbuz rayonu üzrə:** | | | | | |
| 6960113 | Şahbuz şəhər 1№-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960311 | Ağbulaq kənd tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6960310 | Ağbulaq kənd tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6960513 | Ayrınc kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960913 | Daylaqlı kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960914 | Daylaqlı kənd tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6960917 | Daylaqlı kənd tam orta məktəb | Təsviri incəsənət | 1 | 12 | |
| 6961011 | Gömür kənd tam orta məktəb | Biologiya | 1 | 12 | * |
| 6961020 | Gömür kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | * |
| 6961008 | Gömür kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | * |
| 6961107 | Güney Qışlaq kənd tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6961111 | Güney Qışlaq kənd tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6961311 | Kolanı kənd tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6961314 | Kolanı kənd tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6961319 | Kolanı kənd tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6961408 | Kükü kənd tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6961811 | Qızıl Qışlaq kənd tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6961814 | Qızıl Qışlaq kənd tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6961709 | Nursu kənd tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6961718 | Nursu kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6962018 | Şada kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6962113 | Şahbuzkənd kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6962213 | Türkeş kənd tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6962314 | Yuxarı Qışlaq kənd tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6962318 | Yuxarı Qışlaq kənd tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| **Cəmi:** | | **29 yer** | | | |
| **Sədərək rayonu üzrə:** | | | | | |
| 6980108 | Heydərabad qəsəbə tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6980318 | Sədərək kənd 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6980320 | Sədərək kənd 1 №-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6980308 | Sədərək kənd 1 №-li tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6980420 | Sədərək kənd 2 №-li tam orta məktəb | İngilis dili | 2 | 12 | |
| 6980418 | Sədərək kənd 2 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6980409 | Sədərək kənd 2 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| **Cəmi:** | | **9 yer** | | | |
| **Yekun:** | | **165 yer** | | | |

(*) Ulduz işarəsi ilə göstərilmiş müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

## Fəal gənclərə dövlət qayğısının daha bir nümunəsi

### *Ağbulaq İstirahət Mərkəzində bir gün*

***Dünya əhəmiyyətli tarixi abidələrə, füsunkar təbiətə, müasir infrastruktura malik olan muxtar respublikamızda turizm potensialının daha da gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu çərçivədə kənd turizminin inkişafına da xüsusi önəm verilir. Ağbulaq İstirahət Mərkəzi bu baxımdan daha çox diqqəti cəlb edir.***



2016-cı il aprel ayının 2-dən muxtar respublika məktəblilərinin, ali təhsil müəssisələrinin təhsildə və ictimai işlərdə fərqlənən tələbələrinin, sağlamlıq imkanları məhdud uşaqların, idmançı gənclərin Ağbulaq İstirahət Mərkəzinə səyahətləri, həmçinin burada "Yay məktəbi"nin təşkili uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri, onların istirahətləri muxtar respublikamızın dilbər guşəsi ilə tanışlıqları baxımından əhəmiyyətlidir.

İyulun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Naxçıvan Dövlət Universitetinin, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatının iştirakı ilə Naxçıvan Dövlət Universitetinin 50-dək fəal tələbəsi bu imkandan yararlanıb. Həmin gün tələbələr səhər saat 9-da Naxçıvan şəhərindən Ağbulaq İstirahət Mərkəzinə yola düşüblər.

"Yay məktəbi"nin növbəti iştirakçıları ilk olaraq turizm mərkəzi ilə tanış olublar. Nahardan sonra tələbələr proqrama uyğun olaraq stolüstü idman oyunlarında iştirak ediblər. Oxunması zəruri olan kitablarla bağlı "Nə? Harada? Nə zaman?" intellektual oyun maraqlı anlarla yadda qalıb. Tələbələrin verilən sualları doğru cavablandırmaları onların oxunması zəruri olan kitabları maraqla mütaliə etdiklərini göstərib.

Axşam isə vətənpərvərlik mövzusunda film nümayiş olunub.

İyulun 15-16-da da müxtəlif idman oyunları, konsert proqramları, Vətənə, xalqa, dövlətçiliyə bağlılıq aşılayan filmlər nümayiş etdirilib, tələbələrin Ağbulaq kəndinin ərazisinə gəzintiləri təşkil olunub, "Xəmsə" milli intellektual oyunları keçirilib, diskussiyalar aparılıb. Bütün bunlar tələbələrdə xoş ovqat yaradıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Tahir Məmmədli ilə söhbətimizdə o, "Yay məktəbi"nin təşkilinin əhəmiyyətini qeyd edərək deyir ki, tələbələr burada asudə vaxtlarını səmərəli keçirirlər. Təşkil olunan tədbirlər gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində, dünyagörüşlərinin zənginləşdirilməsində, yeni-yeni dostlar qazanmalarında, doğma yurdumuzun səfalı məkanları ilə tanış olmalarında mühüm rol oynayır.

Tələbələrin "Yay məktəbi"ndən razı qaldıqlarını hiss etmək çətin deyil. Onlar gün ərzində yorulsalar da, hər birinin üzündə təbəssüm, sevinc vardır. Naxçıvan Dövlət Universitetinin İnformatika kafedrasının müəllimi, universitet Gənclər Təşkilatının sədri, Prezident mükafatçısı Zümrüd Səfərova bu barədə deyir ki, universitetin tələbələri Ağbulaq İstirahət Mərkəzinə gələn andan hər birində yüksək əhval-ruhiyyə, xoş ovqat hiss olunur. Çünki burada tələbələrin yaxşı istirahəti üçün hər cür şərait yaradılıb. Bütün bunlar muxtar respublikamızda gənclərə göstərilən böyük diqqət və qayğının nəticəsində mümkün olub. Buna görə dövlətimizə minnətdarıq.

Universitetin Memarlıq və mühəndislik fakültəsinin Memarlıq ixtisasının sonuncu kurs tələbəsi Anar Sadiqov isə diqqəti oxunması zəruri olan kitablarla bağlı keçirilən yarışlara, müzakirələrə yönəldərək qeyd edir ki, o, bədii ədəbiyyatı mütaliə etməyi çox xoşlayır. Bununla bağlı intellektual yarışların keçiriləcəyini biləndə çox sevinib. Anar yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığını bildirir və deyir ki, burada çoxlu yeni dostlar, həmfikirlər tapıb. Onlarla birlikdə oxuduğu kitabları müzakirə ediblər.

Hüquq fakültəsinin birinci kurs tələbəsi, Prezident təqaüdçüsü Günnar Fərəcova isə Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir, gəlir. Haqqında eşitsə də, bu mərkəzin belə gözəl, səfalı yerdə yerləşdiyini təsəvvür etmirmiş. O bildirir ki, buranın təbiəti çox gözəldir. Hər yer təmiz, səliqəli, havasına da söz ola bilməz. İstirahət üçün hərtərəfli şərait yaradılıb. Müxtəlif idman yarışlarının, intellektual oyunların keçirilməsi isə hər bir tələbənin ürəyincə olub.

Söhbətə qoşulan Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Aktyorluq ixtisasının 3-cü kurs tələbəsi Səyyad Məmmədov deyir ki, istirahət günlərində hər bir tələbə yoldaşında ruh yüksəkliyi hiss etdi. Universitetin fəal gəncləri üçün mərkəzdə "Yay məktəbi"nin təşkili bir daha onu göstərir ki, muxtar respublikamızda gənclərə, təhsilə böyük dövlət qayğısı vardır.

Qeyd edək ki, "Yay məktəbi"nin növbəti iştirakçıları bu gün Naxçıvan şəhərinə qayıdacaqlar.

✍ **Ramiyyə ƏKBƏROVA**

***Azərbaycan Respublikası Prezidentinin vətəndaşların növbəti həqiqi hərbi xidmətə çağırılması haqqında sərəncamı respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da böyük ruh yüksəkliyi ilə həyata keçirilir.***

## Gənclər ordu sıralarına yola salınıblar



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Şərur Rayon İdarəsində bu münasibətlə keçirilən tədbirdə çıxış edən idarənin rəisi vəzifəsinin icraçısı, polkovnik-leytenant Cəfər Hüseynov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi mühüm tədbirlər ölkəmizin hərbi gücünü ildən-ilə artırır. Qeyd olunub ki, bunu cari ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun Günnüt kəndində və ətraf ərazilərdə keçirilən uğurlu əməliyyatlar da bir daha sübut etdi.

Çomaxtur kənd sakini Azər Əliyev valideynlər adından çıxış edərək hərbi xidmətə yola salınanlara Vətənin müdafiəsində uğurlar arzulayıb.

Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Nəsib Quliyev rayon İcra Hakimiyyəti aparatının məsul işçisi Zakir Bayramov, Gənclər və İdman İdarəsinin əməkdaşı Vüqar Paşayev çıxışlarında gənclərimizə nümunəvi hərbi xidmət arzulayıblar.

Çağırışçılar adından çıxış edən Saleh Əliyev əsgər olmağın, Milli Ordumuzun şəxsi heyətinə qatılmağın doğurduğu qürur hissini bölüşərək hərbi xidməti şərəf və ləyaqətlə, uğurla başa vuracaqlarına əminliyini bildirib.

Həmin gün Kəngərli rayonunda da çağırışçılar hərbi xidmətə yola salınıb.

**E.MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 16 iyul 2018-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4348 | 2475 | 7882 | 31,8 |
| 2. | Babək rayonu | 10526 | 8144 | 25083 | 30,8 |
| 3. | Ordubad rayonu | 1678 | 1674 | 4602 | 27,5 |
| 4. | Culfa rayonu | 6116 | 6047 | 17352 | 28,7 |
| 5. | Kəngərli rayonu | 4706 | 3392 | 9987 | 29,4 |
| 6. | Şahbuz rayonu | 1615 | 102 | 255 | 25,0 |
| 7. | Sədərək rayonu | 2466 | 1657 | 5394 | 32,6 |
| 8. | Naxçıvan şəhəri | 1028 | 754 | 2068 | 27,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32483** | **24245** | **72623** | **30,0** |


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 516